# Təyinatdan sonra

Gündüz Hacıyevin Goranboy Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri təyin olunduğu vaxtdan çox da uzun zaman keçməyib. Amma bu dövr ərzində görülən işlərin miqyası o qədər böyükdür ki, onları nəinki bir neçə, hətta on il çərçivəsinə sığışdırmaq belə mümkün deyildir.

Bölgədə mədəniyyətin elə bir sahəsi yoxdur ki, dirçəliş hiss olunmasın. Bunu şöbənin özündə birləşdirdiyi bütün kitabxana, muzey, musiqi məktəbi və klub müəssisələrinin, o cümlədən rayon mədəniyyət evinin fəaliyyətində də görmək mümkündür.

Yerlərdə xeyli quruculuq, təmirbərpa işləri aparılmış, maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə çoxsaylı tədbirlər görülmüşdür.

Diqqətinizə verdiyimiz bu şəkillər rayon mədəniyyət evinin həyata keçirdiyi rəngarəng tədbirlər zamanı lentə köçürülmüşdür.

Goranboy



Bədii qiraət üzrə respublika müsabiqəsinin laureatı Asəf Cəfərov xalq artisti Nurəddin Mehdixanlı ilə



Ü.Hacıbəyovun "Arşın mal alan" tamaşası. Rollarda: Elçin Tağıyev (Vəli) və Səadət İsmayılova (Telli)



Mədəniyyət evinin direktoru Əli Həsənov